

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 55 (21.465)

29 mart 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Martın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət ediblər.

Dövlətimizin başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva Fəxri xiyabanda Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatı laureatı, Əməkdar incəsənət xadimi, Xalq yazıçısı Maqsud İbrahimbəyovun məzarını ziyarət edərək xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Maqsud İbrahimbəyovun həyat yoldaşı Anna İbrahimbəyovaya bir daha başsağlığı veriblər.

Anna İbrahimbəyova həyat yoldaşının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına və xanımına minnətdarlıq edib.



## Naxçıvan Muxtar Respublikası təltiflərinin verilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əfəndiyev Zərrab Nizaməddin oğlu – **"Əməkdar kənd təsərrüfatı işçisi"** fəxri adı ilə;

Hacıyev Rasim Bəyalı oğlu

Hüseynov Ədalət İsmayıl oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 mart 2016-cı il*

## Saltaqda yeni sosial obyektlər istifadəyə verilmişdir

Naxçıvan Muxtar Respublikasında aparılan kompleks quruculuq işləri, kəndlərdə yeni sosial obyektlərin yaradılması insanların məskunlaşması və rahat yaşayışı üçün geniş imkanlar açır.

Bu gün Culfa rayonunun Saltaq kəndi də yeni inkişaf dövrünü yaşayır. Haçadağın ətəyində və Əlincəçayın sahilində yerləşən bu kənddə geniş quruculuq işləri aparılmışdır. Artıq Saltaq kəndi ölkəmizin sürətli sosial-iqtisadi inkişafını əks etdirən müasir yaşayış məntəqəsinə çevrilmişdir.

## Saltaq kənd tam orta məktəbi yeni binada fəaliyyət göstərəcək

Hər il muxtar respublikada onlarla yeni məktəb binası tikilir, müasir tədris şəraiti yaradılır. Martın 28-də Saltaq kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılış tədbirində iştirak etmişdir.

Tədbirdə Culfa Rayon İcra Hakimiyyətinin başçısı Şükür Babayev çıxış edərək demişdir ki, muxtar respublikanın digər rayonları kimi, Culfa rayonu da günü-gündən inkişaf edərək yeniləşir. Hər il kəndlərdə kompleks quruculuq işləri aparılır. Yeni sosial obyektlər tikilir. Bu gün Saltaq kəndində istifadəyə verilən məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri, su dəyirmanı və körpü bu istiqamətdə həyata keçirilən tədbirlərin davamıdır. Şükür Babayev aparılan quruculuq tədbirlərinə görə rayon ictimaiyyəti adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.







Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə çıxış edərək demişdir: Təhsil hər bir ölkənin gələcəyini təmin edən sahədir. Buna görə də ölkəmizdə təhsilin inkişafına qayğı göstərilir, yeni məktəb binaları tikilərək istifadəyə verilir. Bu gün Saltaq kənd tam orta məktəbinin yeni binasının istifadəyə verilməsi də təhsilə göstərilən qayğının daha bir ifadəsidir.

Ali Məclisin Sədri yeni məktəb binasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***"Təhsil Azərbaycanın gələcəyini təmin edən sahədir"***, – fikrini xatırladaraq demişdir: Ulu öndərin tövsiyələri əsas götürülərək ölkəmizdə elm və təhsilin inkişafına, yeni məktəb binalarının tikintisinə xüsusi diqqət yetirilir. Məqsəd ondan ibarətdir ki, ölkəmizin gələcəyi üçün təhsilli, vətənpərvər gənclər yetişdirilsin. Təhsilli, vətənpərvər gənclər isə müasir tədrisin tələblərinə cavab verən, vətənpərvər müəllimləri olan məktəblərdə hazırlanır. Saltaq kənd tam orta məktəbinin nailiyyətləri onu deməyə əsas verir ki, məktəbin vətənpərvər müəllim kollektivi vardır. Məktəbdə tədris müəllim tələbkarlığı və şagird çalışqanlığı əsasında qurulub. Ötən tədris ilində məktəbin məzunlarından 7-si ali məktəblərə, 3-ü orta ixtisas məktəbinə, 2-si isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunmuşdur.

Qazanılan nailiyyətlərə görə məktəbin kollektivinə təşəkkür edən Ali Məclisin Sədri demişdir ki, ölkəmizin gələcəyinin təmin olunması daim diqqət mərkəzində saxlanılır, dövlətimiz tərəfindən istər şəhər və rayon mərkəzlərində, istərsə də ucqar dağ kəndlərində müasir tədris şəraiti yaradılır. Bu gün Saltaq kəndində müasir tələblərə cavab verən təhsil kompleksi müəllim və şagirdlərin istifadəsinə verilir. Yaradılan bu şərait məktəb kollektivinin qarşısına mühüm vəzifələr qoyur. Müəllimlər məktəbdə qurulan müasir tədris avadanlıqlarından məqsədyönlü istifadə edərək şagirdlərə dərsləri qavramaqla öyrətməli, gənclərin peşə seçiminə kömək göstərməlidirlər. Şagirdlər isə yaradılan şəraitdən yararlanaraq yaxşı təhsil almalı, peşə öyrənməli, özlərini gələcəyə hazırlamalı, həm ölkəsi və ailəsi, həm də cəmiyyət üçün yararlı vətəndaş kimi yetişməlidirlər.

Ali Məclisin Sədri bu sahədə kollektivə uğurlar arzulamış, Culfa rayon ümumtəhsil məktəblərində əla qiymətlərlə oxuyan 26 şagirdə kompüter hədiyyə etmiş, açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, 306 yerlik məktəb binası 4 mərtəbəlidir. Binada 4-ü elektron lövhəli olmaqla, 17 sinif otağı, 2 kompüter otağı, kimya-biologiya və fizika laboratoriyaları, müəllimlər otağı, şahmat sinfi, hərbi kabinə, fondunda 6 mindən artıq ədəbiyyat və dərslik olan kitabxana, bufet və idman zalı vardır.

Kitabxanaya baxış zamanı Ali Məclisin Sədri şagirdlərdə mütaliə vərdişlərinin formalaşdırılması və onların kitabxanalara cəlb edilməsinin əhəmiyyətini qeyd etmiş, bu sahədə müvafiq tədbirlərin görülməsini tapşırmışdır.

Muxtar respublikanın ümumtəhsil məktəblərində tədrisin informasiya texnologiyaları əsasında qurulması diqqət mərkəzində saxlanılır. Məktəbin kompüter otaqlarında 38 kompüter dəsti quraşdırılmış və internetə qoşulmuşdur. Elektron lövhəli sinifdə isə müasir multimedia sistemi qurulmuş və məktəb distant təhsil şəbəkəsinə qoşulmuşdur. Baxış zamanı "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə muxtar respublikanın 212 təhsil müəssisəsi arasında keçirilən distant dərs izlənilmişdir.

Ali Məclisin Sədri birinci sinifdə dərs

*Ardı 2-ci səhifədə*



prosesi ilə maraqlanmışdır. Məlumat verilmişdir ki, məktəbin birinci siniflərində 26 şagird təhsil alır. Müəllimlər yeni təlim metodlarından istifadə edir, məktəb-valideyn münasibətinə xüsusi diqqət yetirilir.

Humanitar və dəqiq elmlərin tədrisi ilə yanaşı, şagirdlərin hərbi biliklərinin artırılması, vətənpərvərlik ruhunda tərbiyəsi və sağlam böyüməsi üçün də məktəbdə lazımi şərait yaradılmış, yeni hərbi kabinə və geniş idman zalı istifadəyə verilmişdir.

Məktəbin hərbi rəhbəri Adil Cabbarov demişdir ki, şagirdlər çağırışaqədərki hərbi hazırlıq fənninə böyük maraq göstərir, ölkəmizdə, eləcə də muxtar respublikada keçirilən hərbi idman oyunlarında fəal iştirak edirlər. Son illər məktəbin 32 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə və ali hərbi məktəblərə qəbul olunmuşdur. Gənclərin hərb sənətinə marağının artırılması və vətənpərvər böyüdülməsi sahəsində qarşıya qoyulan vəzifələr bundan sonra da uğurla yerinə yetiriləcəkdir.

Ali Məclisin Sədri çağırışaqədərki hərbi hazırlıq fənninin tədrisini düzgün təşkil etdiyinə görə məktəbin hərbi rəhbərinə təşəkkür etmişdir.

Şahmat uşaqların zehni inkişafına müsbət təsir göstərən və məntiqi təfəkkürünü formalaşdıran idman növlərindəndir. Son illər muxtar respublikada şahmat məktəbləri ilə yanaşı, ümumtəhsil məktəblərində də şahmatın tədrisinə xüsusi diqqət yetirilir. Saltaq kənd tam orta məktəbində də şahmat sinfi yaradılmışdır.

Müəllimlərlə görüşən Ali Məclisin Sədri demişdir ki, ölkəmizin gələcəyi gənclərin bugünkü hazırlığından asılıdır. Onların gələcək fəaliyyəti hər bir müəllimə baş ucalığı gətirəcəkdir. Saltaq kənd tam orta məktəbində kompüter və elektron lövhəli siniflər, müasir kitabxana və laboratoriyalar istifadəyə verilmiş, tədris bazası gücləndirilmişdir. Kollektiv yaradılan şəraitdən səmərəli istifadə etməli, təhsilli və vətənpərvər gənclər yetişdirməlidir.

Müəllim Mahir Əsgərov kollektiv adından minnətdarlıq edərək demişdir: Gündən-günə inkişaf edən doğma Naxçıvanın hər guşəsində quruculuq töhfələrinin izləri vardır. Bu töhfədən Saltaq kəndinə də pay düşmüşdür. İllərlə arzusunda olduğumuz yeni məktəb binası hər birimizi daha böyük həvəslə işləməyə ruhlandırır. Bu gündən etibarən müasir təhsil ocağında fəaliyyət göstərəcəyik. Bu imkanlardan layiqincə istifadə edəcək, kənddə təhsilin səviyyəsini daha da artıracaq, dövlətimizə, xalqımıza layiq vətənpərvər gənclər yetişdirəcəyik.

Məktəbin həyətində də geniş abadlıq işləri görülmüş, açıq idman qurğuları quraşdırılmışdır.



## Yeni kənd mərkəzi istifadəyə verilmişdir



Martın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Saltaq Kənd Mərkəzinin də açılışını etmiş, binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, kənd mərkəzində rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, mədəniyyət evi və 70 yerlik iclas zalı yerləşir.

Yeni Azərbaycan Partiyası Saltaq kənd ərazi ilk təşkilatının sədri Gülnar Məmmədova minnətdarlıq edərək demişdir ki, bu gün muxtar respublikanın hər bir bölgəsi abadlaşır. Fəxr edirik ki, Saltaq da müasir kəndlərin sırasına qoşulmuşdur. Bütün bunlar ulu öndərimiz Heydər Əliyev ideyalarının layiqincə davam etdirilməsinin nəticəsində mümkün olmuşdur. Hazırda Yeni Azərbaycan Partiyası Saltaq kənd ərazi ilk təşkilatının 182 üzvü vardır. Onlardan 94-ü qadın, 71-i isə gənclərdir. Partiya üzvləri ulu öndərimizin ideyalarının uğurla həyata keçirilməsi üçün bundan sonra da səylə çalışacaq, qarşıya qoyulmuş vəzifələri uğurla yerinə yetirəcəklər.

Kənd mərkəzində baytarlıq məntəqəsi üçün müvafiq dərman preparatları və lazımi avadanlıqlarla təchiz olunmuş iş otağı ayrılmışdır. Binada kənd kitabxanası da oxucuların istifadəsinə verilmişdir. Kitabxanada 15 mindən çox kitab vardır.

İnzibati ərazi dairəsi üzrə nümayəndə Beşir Ağayev məlumat vermişdir ki, Saltaq kəndində fərdi təsərrüfatların inkişafı üçün hərtərəfli şərait vardır. Sakinlər əkinçilik, heyvandarlıq və arıçılıqla məşğul olurlar. Hər il bol məhsul istehsal edilir. Hazırda kənddə 3 ferma vardır. Fərdi təsərrüfatlarda 5 min başdan artıq iribuynuzlu və xırdabuynuzlu heyvan saxlanılır. Bütün bunlar da insanların rifahının yaxşılaşmasına, məskunlaşmanın ilbəil artmasına səbəb olmuşdur. Təkcə ötən il Saltaq kəndində 10 yeni ev tikilmişdir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunması, tikililərin qorunması və kənddə yaşıllıqların artırılması barədə tapşırıqlar vermişdir.

Rabitə evində 384 nömrəlik elektron Avtomat Telefon Stansiyası quraşdırılmış, poçt şöbəsi fəaliyyətə başlamışdır. Həmçinin kəndə 1200 metr fiberoptik xətt çəkilmiş, abunəçilərin genişzolaqlı internet və digər elektron xidmətlərdən istifadəsi təmin edilmişdir.

Binanın həyətində abadlıq işləri aparılmış, ağac və gül kolları əkilmişdir.

## Saltaq kəndində yeni həkim ambulatoriyası fəaliyyətə başlamışdır



Muxtar respublikada tibbi xidmətin təşkilinə və əhalinin sağlamlığının etibarlı qorunmasına xüsusi diqqət yetirilir. Yaşayış məntəqələrində, xüsusilə kəndlərdə həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin istifadəyə verilməsi bu məqsədə xidmət edir. Martın 28-də Saltaq kənd həkim ambulatoriyasının açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Binada baş həkim, stomatoloji kabinə, palata, doğuş, peyvənd, aptek, qeydiyyat, tibb bacısı, mama, manipulyasiya və sanitar otaqları yerləşir. Ambulatoriyanın yeni tibbi avadanlıqlarla və dərman vasitələri ilə təmin olunması səhiyyə xidmətinin keyfiyyətini yüksəltmişdir. Kənddə peyvənd işi vaxtlı-vaxtında aparılır, gigiyenik qaydalara əməl olunur, səhiyyə maarifi diqqət mərkəzində saxlanılır. Bildirilmişdir ki, ambulatoriyanın həkim və tibb işçiləri yaradılan şəraitdən istifadə edərək sakinlərin sağlamlığını bundan sonra da etibarlı qoruyacaqlar.

*Ardı 3-cü səhifədə*



## Saltaqda yeni xidmət mərkəzi istifadəyə verilmişdir

Bu gün muxtar respublikanın kəndlərində istifadəyə verilən yeni xidmət mərkəzləri insanların gündəlik müraciət etdikləri ünvanlardan birinə çevrilmişdir. Yeni iş yerlərinin açılması baxımından da mühüm əhəmiyyət kəsb edən bu mərkəzlərdə sakinlərə müxtəlif məişət xidmətləri göstərilir.

Martın 28-də Saltaq kəndində xidmət mərkəzinin açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və sənaye malları mağazaları fəaliyyət göstərir. Mərkəzdə 7 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri xidmət mərkəzində yerli məhsulların satışına daha çox üstünlük verilməsini tapşırmışdır.




## Saltaq kəndindəki su dəyirmanı yenidən qurulmuşdur





Xalqımızın məişət mədəniyyətinin ayrılmaz parçası olan su dəyirmanlarından tarixən Naxçıvanda geniş istifadə olunmuşdur. Son illər muxtar respublikada tarixi abidələrin, qədim tikililərin bərpası istiqamətində görülən işlər ruzi-bərəkət rəmzi olan su dəyirmanlarını da əhatə etmişdir. Bu işlərin davamı olaraq Saltaq kəndindəki su dəyirmanı da yenidən qurulmuşdur. Martın 28-də burada su dəyirmanı istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Məlumat verilmişdir ki, bu dəyirman Culfa rayonunda yeni yaradılan üçüncü su dəyirmanıdır. Rayonun Kırna və Camaldın kəndlərindəki su dəyirmanları yenidən qurularaq istifadəyə verilmişdir. Sahəsi 77 kvadratmetr olan Saltaq su dəyirmanının gündəlik istehsal gücü 1 tondur. Ötən ildən başlayaraq dəyirmanda əsaslı bərpa və yenidənqurma işləri aparılmış, Əlincəçaydan qidalanan 2800 metrlik dəyirman arxı yenidən qurulmuşdur. Su dəyirmanı Saltaq kəndi ilə yanaşı, qonşu kəndlərin də tələbatını ödəyəcəkdir.

Dəyirmançı Həsən Qənbərov minnətdarlıq edərək demişdir: Saltaq kəndindəki qədim su dəyirmanı uzun illər yararsız vəziyyətdə qalmışdı. Bu gün dəyirmanın bərpa olunaraq yenidən istifadəyə verilməsi sakinlərin və ailəmizin böyük sevincinə səbəb olmuşdur. Çünki su dəyirmanı sakinləri keyfiyyətli unla təmin etməklə yanaşı, həm də yeni iş yeridir.

Ali Məclisin Sədri su dəyirmanlarının tarixi-mədəni irsimizin bir parçası kimi qorunub saxlanılmasının vacibliyini bildirmişdir.

## Saltaq kəndində avtomobil yolu və körpü istifadəyə verilmişdir



Çəkilən hər bir yol, tikilən hər bir körpü iqtisadi inkişafın göstəricisidir. Son illər muxtar respublikanın ən ucqar dağ kəndlərində müasir standartlara uyğun yollar salınmış, körpülər inşa olunmuşdur. Bu işlərin davamı olaraq Saltaq kəndinin yolları da yenidən qurulmuş, Əlincə çayı üzərində yeni körpü tikilmişdir. Martın 28-də Saltaq kənd avtomobil yolunun və körpünün açılışı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmiş, sakinləri təbrik edərək demişdir: Saltaq kəndində kompleks quruculuq işləri görülmüş, məktəb binası, həkim ambulatoriyası, kənd və xidmət mərkəzləri tikilmiş, yollar yenidən qurulmuş, yeni körpü salınmış, su dəyirmanı bərpa edilmişdir. Muxtar respublikanın abad yaşayış məntəqələrindən birinə çevrilən Saltaq müasir Azərbaycan kəndinin nümunəsidir. Yaradılan şərait kənddə məskunlaşmanı artırmışdır. Bu gün istifadəyə verilən xidmət mərkəzi və fəaliyyəti bərpa olunan qədim su dəyirmanı isə yeni iş yerlərinin açılmasına səbəb olmuşdur. Əlincəçayın üzərində yeni körpünün istifadəyə verilməsi gediş-gəlişi asanlaşdırmışdır. Görülən bu işlər insanların rahat yaşayışına xidmət edir. Ona görə də kənd sakinləri qurulanları qorumalı, torpaqlardan səmərəli istifadə etməli, təsərrüfatlar genişləndirilməlidir.

Sakin Həsən Ənnağıyev minnətdarlıq edərək demişdir: Saltaq kəndində geniş quruculuq-abadlıq işləri həyata keçirilmişdir. Kənddaxili yollara asfalt salınmış, əhali dayanıqlı elektrik enerjisi, rabitə, təbii qaz və içməli su ilə təmin edilmiş, müasir sosial obyektlər tikilib istifadəyə verilmişdir. Bütün bunlar, eləcə də Əlincəçay üzərində yeni körpünün istifadəyə verilməsi sakinlərin hədsiz sevincinə səbəb olmuşdur. Bu tədbirlər ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi uğurlu inkişaf strategiyasının tərkib hissəsidir. Bütün bunlar onu göstərir ki, ölkəmizin bu günü və gələcəyi etibarlı əllərdədir.

Baxış zamanı bildirilmişdir ki, körpünün uzunluğu 16, eni isə 5,5 metrdir. Çay yatağında beton bəndlər inşa olunmuş, körpünün sel və daşqınlardan qorunması təmin edilmiş, dayaqlar möhkəmləndirilərək yükgötürmə qabiliyyəti 30 tona çatdırılmışdır. Hərəkətin təhlükəsizliyinin təmin olunması üçün lazımi tədbirlər görülmüş, müvafiq yol-hərəkət nişanları qoyulmuşdur.

Kənddaxili yollar da yenidən qurulmuş, 3,3 kilometrlik giriş və köməkçi avtomobil yollarına asfalt örtük, 3,2 kilometrlik yola çınqıl qatı verilmişdir. Yolun üzərində 65 su keçidi qoyulmuş, müvafiq yerlərdə 1450 metrlik beton kanal çəkilmişdir.

* * *

Saltaqda aparılan abadlıq-quruculuq tədbirləri bütün sahələri əhatə etmiş, kənddə 4 kilometr rabitə, 400 metr qaz xətti çəkilmiş, 3 kilometrdən artıq elektrik xətti yenilənmişdir. Əlincə çayında 230 metr yeni kaptaj tikilmiş, 682 metr içməli su xətti çəkilmiş, 6 yerdə supaylayıcı qoyulmuşdur.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



## Muzeylər ziyarət olunur



“Muzey günləri” çərçivəsində martın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri Naxçıvan Dövlət Tarix Muzeyində olmuşlar.

Məlumat verilmişdir ki, 1924-cü ildə fəaliyyətə başlayan muzeydə qədim, orta əsrlər və müasir dövrü əhatə edən 49 minə yaxın eksponat qorunub saxlanılır. 10 şöbədən ibarət olan ekspozisiyada müxtəlif tarixi dövrlərə aid məişət əşyaları və əmək alətləri, muxtar respublika ərazisində aşkar olunan mis və gümüş pullar nümayiş etdirilir. Həmçinin muzeydə xalçaçılıq, zərgərlik, misgərlik, dulusçuluq və nəqqaşlıq sənəti nümunələri, xalq ustalarının müxtəlif əl işləri, eləcə də Naxçıvanın müasir inkişafını əks etdirən zəngin materiallar nümayiş etdirilir.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin və Ali Məhkəmənin kollektivləri də Naxçıvan Dövlət Tarix Muzeyində olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ədliyyə və Fövqəladə Hallar nazirliklərinin, Dövlət Gömrük Komitəsinin əməkdaşları Heydər Əliyev Muzeyini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, Dövlət Təhlükəsizlik Xidmətinin və Daxili İşlər Nazirliyinin kollektivləri Dövlət Bayrağı Muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının, Maliyyə və Vergilər nazirliklərinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, İqtisadiyyat, Nəqliyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksini, Rabitə və Yeni Texnologiyalar, Kənd Təsərrüfatı və Səhiyyə nazirliklərinin kollektivləri Xatirə Muzeyini, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşları Cəmşid Naxçıvanskinin ev-muzeyini, Gənclər və İdman, Təhsil, Mədəniyyət və Turizm nazirliklərinin kollektivləri isə Bəhruz Kəngərli Muzeyini ziyarət etmişlər. Həmçinin Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə, Ailə, Qadın və Uşaq Problemləri üzrə, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət komitələrinin kollektivləri Naxçıvan Dövlət Xalça Muzeyində, Dövlət Miqrasiya Xidmətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Dövlət Baytarlıq Xidmətinin kollektivləri Naxçıvan Dövlət Rəsm Qalereyasında, Mərkəzi Seçki Komissiyası, Dövlət Sosial Müdafiə Fondu və Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin əməkdaşları “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Komplekslərində, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin, Arxiv İdarəsinin və Dini Qurumlarla İş üzrə İdarənin kollektivləri Ədəbiyyat Muzeyində, Dövlət Statistika, Meliorasiya və Su Təsərrüfatı komitələrinin, Televiziya və Radio Şurasının, Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin və “Şərq qapısı” qəzetinin kollektivləri isə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində olmuş, ətraflı məlumatlar almışlar.

Muxtar respublikanın şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeylərdə olmuşlar.

**“Şərq qapısı”**





## Tur-aksiyalar bakılı məktəblilərdə xoş təəssüratlar yaradıb

***Azərbaycan Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən, respublikamızın şəhər və rayonlarının məktəbliləri üçün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın ikinci mərhələsinə martın 24-də start verilib. Həmin gün tur-aksiyanın Naxçıvan Muxtar Respublikasından olan iştirakçıları Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.***

Sınaq imtahanlarında 450-700 arasında bal toplayan 150 IX-XI sinif şagirdi 20 bələdçi-müəllimin müşayiəti ilə 4 gün ərzində Bakı şəhərinin tarixi abidələri və mədəniyyət müəssisələri ilə tanış olublar.

Martın 24-də tur-aksiya çərçivəsində Bakı şəhərinin 12 rayonundan 160 məktəbli 20 bələdçi-müəllimin müşayiəti ilə Naxçıvan Muxtar Respublikasına gəliblər.

Məktəblilərin Naxçıvan Muxtar Respublikasına səfəri ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərində ucaldılan əzəmətli abidəsini ziyarət etməklə başlayıb. Sonra şagirdlər Heydər Əliyev Muzeyinə gələrək buradakı eksponatlarla tanış olublar.

“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi, o cümlədən Naxçıvan Muxtar Respublikasının istehsalat, təhsil müəssisələri ilə tanışlıq “Ölkəmizi tanıyaq” tur-aksiyanın iştirakçılarında xoş təəssüratlar yaradıb, onların diqqətini cəlb edib. Məktəblilər martın 24-də “Naxçıvan” Universitetində, Biznes Mərkəzində, Xalq yaradıcılığı emalatxanasında olublar.

Martın 25-də tur-aksiya iştirakçıları Naxçıvan Dövlət Universiteti, Naxçıvan Avtomobil Zavodu, “Gəmiqaya Mineral Sular” Məhdud Məsuliyyətli Cəmiyyətinin “Badamlı” zavodu ilə tanış olublar.

Həmin gün Bakı məktəbliləri ecazkar təbiəti, tarixi abidələri ilə diqqəti çəkən Ordubad rayonuna da gediblər.

Ordubad şəhərində yerləşən 3 nömrəli tam orta məktəblə, maarifçi-şair Məhəmməd Tağı Sidqinin, yazıçı Məmməd Səid Ordubadinin, akademik Yusif Məmmədəliyevin Ordubad şəhərində yerləşən ev-muzeyləri ilə, Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim “Qeysəriyyə” binası ilə tanışlıq məktəblilərdə xoş təəssüratlar yaradıb.

Daha sonra “Duzdağ” otelində tur-aksiya iştirakçıları üçün Naxçıvan Dövlət Filarmoniyasının Kamera Orkestrinin konserti olub.

“Ölkəmizi tanıyaq” tur-aksiyanın iştirakçıları martın 26-da Şahbuz rayonuna gediblər.

Şagirdlər “Farma Şah” Məhdud Məsuliyyətli Cəmiyyətində, Şahbuz şəhər 2 nömrəli tam orta məktəbdə, Ağbulaq İstirahət Mərkəzində, Batabat Astrofizika Rəsədxanasında, Şahbuz Dövlət Təbiət Qoruğunda olublar. Məktəblilər Batabat yaylağının füsunkar gözəlliyini maraqla seyr ediblər, Naxçıvanın ecazkar təbiətinə heyran qaldıqlarını bildiriblər.

Martın 26-da Naxçıvanın zəngin, qədim tarixi ilə bağlı 48 mindən çox eksponatın qorunub saxlandığı Naxçıvan Dövlət Tarix Muzeyinə, Naxçıvan şəhərinin ən hündür məkanında qərar tutan Dövlət Bayrağı Meydanı və Muzeyinə, “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksinə gələn şagirdlər qeyd olunan möhtəşəm mədəniyyət müəssisələri ilə yaxından tanış olublar.

Həmin gün Duzdağ Fizioterapiya Mərkəzi ilə tanışlıqdan sonra məktəblilər “Duzdağ” otelində Naxçıvan Musiqi Kolleci tələbələrinin konsertinə baxıblar.

Martın 27-də “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyanın iştirakçıları Kəngərli rayonuna gediblər. Məktəblilər qədimliklə müasirliyin sintezini özündə yaşadan rayonun müasir görkəmini və tarixi məkanlarını heyranlıqla seyr ediblər. Onlar rayonun ərazisində yerləşən Naxçıvan Sement Zavodu, Kəngərli Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Qarabağlar kənd 1 nömrəli tam orta məktəbi və Qarabağlar türbəsi ilə də yaxından tanış olublar, rayondan xoş təəssüratlarla ayrılıblar.

Martın 24-dən 27-dək respublikamızın bir sıra regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən növbəti maarifləndirici tur-aksiya başa çatıb. Bu münasibətlə Naxçıvan şəhərində yerləşən Gənclər Mərkəzində məktəblilərlə görüş keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun icraçı direktoru Məmməd Babayev, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov və Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış ediblər.

Sonda tur-aksiya iştirakçılarına hədiyyələr təqdim olunub.

Dörd gün ərzində bu qədim diyarın tarixi və mədəniyyəti ilə tanış olan məktəblilər martın 27-də Naxçıvan Beynəlxalq Hava Limanından Bakı şəhərinə yola salınıblar.

Həmin gün “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiya çərçivəsində Bakı şəhərində səfərdə olan naxçıvanlı şagirdlər də muxtar respublikaya qayıdıblar.

**✍ Rauf ƏLİYEV**

## Türkiyənin rəqs qrupu Naxçıvanda çıxış edib



***Novruz xalqımızın ən qədim və əziz bayramlarındandır. Ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da bu bayram geniş şəkildə qeyd edilir. Novruz atributları ilə bəzədilmiş Naxçıvan şəhərində bayram şənlikləri bu il rəngarəngliyi ilə seçilib. Bayram günlərində Türkiyə Respublikasından gəlmiş folklor qrupunun maraqlı çıxışları şəhər sakinlərinin və bura gələn qonaqların əsl sevincinə səbəb olub.***

Belə ki, martın 22-də Türkiyənin Azərbaycandakı Səfirliyinin, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin və Yunus Əmrə İnstitutu Bakı Türk Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində “Türkiyə Respublikası azərbaycanlı qardaşlarının Novruz bayramını təbrik edir” şüarı altında Novruz festivalı keçirilib.

Musiqi proqramından əvvəl Türkiyənin Azərbaycandakı səfirinin mədəniyyət müşaviri Murad Qaraçanta, Türkiyənin Naxçıvan Muxtar Respublikasındakı Baş konsulunun müavini Fəxrəddin Uzun, Bakıdakı Yunus Əmrə İnstitutunun müdiri İbrahim Yıldırım çıxış edərək naxçıvanlıları Novruz bayramı münasibətilə təbrik ediblər.

Sonra Türkiyə Respublikası Mədəniyyət və Turizm Nazirliyinin “Tubil” dərnəyinin rəqs qrupunun üzvlərinin təqdimatında müxtəlif folklor rəqsləri təqdim olunub.

Tədbir iştirakçıları kompleksdə Türkiyənin Mədəniyyət və Turizm Nazirliyinin təşkil etdiyi əl sənəti nümunələrindən ibarət sərgi ilə də yaxından tanış olublar. Türk xalq rəqsləri və sərgidə nümayiş etdirilən əl sənəti nümunələri tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

Türkiyənin Azərbaycandakı səfirinin mədəniyyət müşaviri Murad Qaraçanta “Şərq qapısı” qəzetinə müsahibəsində bildirib ki, Novruz bayramı hər il Azərbaycanda böyük sevinc və coşqu hissi ilə keçirilir. Biz də azərbaycanlı qardaşlarımıza Novruz töhfəsi vermək, bu sevinci birgə yaşamaq üçün belə bir tədbirin keçirilməsinə qərar verdik.

Bakıdakı Yunus Əmrə İnstitutunun müdiri İbrahim Yıldırım isə Naxçıvana ilk dəfə gəldiyini bildirdi. Qeyd etdi ki, Naxçıvanın qədim tarixə malik olduğunu əvvəlcədən bilirdi, ancaq indiyədək Azərbaycanı Türkiyə ilə birləşdirən bu bölgədə olmayıb. Musiqi proqramının keçirildiyi məkanda Naxçıvanın tarixini və mədəniyyətini əks etdirən nişanələrini gördükcə, müsahibim ürəyindən keçənləri belə dilə gətirdi: “Bir az bundan əvvəl Möminə xatın türbəsi ilə bağlı məlumatlar öyrəndim. Doğrusu, çox böyük qürur hissi keçirdim ki, Naxçıvan yüz illər bundan əvvəl belə bir mədəniyyət abidəsi yaradıb. Eyni zamanda bunu bir türk qadının şərəfinə edib. Çox möhtəşəmdir. Ətrafdakı daş abidələr, xüsusilə qoç fiqurları buranın qədimliyini özündə əks etdirir. Bütün bunlarla tanış olduqca, qardaş xalqlar olaraq necə qədim tarixə və ortaq mədəniyyətə malik olduğumuzu bir daha görürəm. Mənim üçün həm də ona görə sevinclidir ki, Naxçıvana Novruz bayramı ərəfəsində gəlmişəm. Görürəm ki, Novruz bayramı burada da böyük sevinc hissi ilə qeyd olunur. Hər kəsin bayramını təbrik edirəm”.

Qeyd edək ki, tədbirin təşkilində əsas məqsəd iki qardaş ölkə arasında mövcud olan mədəni sahədəki əlaqələri daha da inkişaf etdirməkdir. Musiqi proqramları Naxçıvandan əvvəl Gəncə, Tovuz, Şəki və Bakı şəhərlərində təqdim olunub.

**✍ Səbuhi HƏSƏNOV**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 237